15 avqust 2015-ci il RESPUBLİKA

# Regionların inkişafı strategiyası uğurla həyata keçirilir

**Son 10 il Azərbaycanın sürətli və hərtərəfli inkişafı, iqtisadiyyatın rəqabət qabiliyyətinin artması, ölkənin enerji, ərzaq, nəqliyyat və ekoloji təhlükəsizliyinin möhkəmləndirilməsi, beynəlxalq nüfuzunun yüksəlməsi, əhalinin rifahının davamlı olaraq yaxşılaşması dövrü kimi tarixin səhifələrinə yazılır. Bu uğurların əsasında Prezident İlham Əliyevin müasir çağırışlara cavab verən məqsədyönlü və praqmatik siyasəti dayanır.**

Azərbaycanın davamlı sosial-iqtisadi inkişafının təmin olunmasında makroiqtisadi sabitliyin qorunmasında, dünya iqtisadi böhranın mənfi təsirinin qarşısının alınmasında dövlət başçısının böyük uzaqgörənliklə apardığı iqtisadiyyatın şaxələndirilməsi siyasətinin, o cümlədən bu siyasətin prioritet istiqamətlərindən olan regionların inkişafı strategiyasının müstəsna əhəmiyyəti vardır.

2004-cü ildən uğurla icra olunan regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları bölgə və rayonların iqtisadi potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə, biznes və investisiya mühitinin, əhalinin rifahının yaxşılaşmasına səbəb olur, bununla da ölkənin strateji inkişaf hədəflərinə, müəyyən edilmiş məqsədlərə nail olunmasına əhəmiyyətli töhfəsini verir. Qeyd edək ki, dövlət başçısı cənab İlham Əliyev təkcə, 2014-cü il ərzində bölgələrə 23 səfəri çərçivəsində 120-yə qədər müxtəlif təyinatlı infrastruktur obyektlərinin, yeni müəssisələrin açılış və təməlqoyma mərasimlərində iştirak edib. Bu zaman ictimaiyyətlə keçirilən görüşlərdə qaldırılan məsələlərin həlli məqsədilə əlavə olaraq 270 milyon manat vəsaitin ayrılması barədə 72 sərəncam imzalanması regionların inkişafına göstərilən diqqətin bariz nümunəsidir. Bu mənada dövlət başçısının Cəlilabad rayonuna səfəri də böyük əhəmiyyət kəsb edir. Cəlilabad rayonuna dəfələrlə səfər etdiyini, rayonda həm iqtisadi, həm sosial sahədə böyük işlər görüldüyünü, müasir emal sənayesi və infrastruktur obyektlərinin istifadəyə verildiyini vurğulayan cənab İlham Əliyev bildirib ki, rayonda iri fermer təsərrüfatının açılışı böyük önəmə malikdir: "Bu gün artıq Azərbaycanda 20-yə yaxın iri fermer təsərrüfatı fəaliyyət göstərir və bu təsərrüfatlarda məhsuldarlıq ölkə üzrə orta məhsuldarlıqdan ən azı 2 dəfə yüksəkdir. Hektardan 50-60 sentner məhsul götürülür. Bax, budur yeni yanaşma və bizim siyasətimiz. Bir neçə il bundan əvvəl göstəriş verilmişdir ki, iri fermer təsərrüfatları yaradılsın və onlardan artıq 19-u yaradılmışdır. Biri də bu gün açılıbdır. Burada həm iş yerləri açılır, eyni zamanda, yeni bir kənd təsərrüfatı sistemi formalaşır".

Qeyd edək ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən irəli sürülmüş və ölkəmizin bütün ərazisinin inkişafının yeni keyfiyyət səviyyəsinə yüksəldilməsini nəzərdə tutan regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramlarının müvəffəqiyyətlə icra olunması "vahid milli iqtisadi məkan"ın tarixi nümunəsini formalaşdırmaqdadır.



Belə ki, Dünya Bankının məlumat bazasına əsasən Dövlət proqramlarının həyata keçirildiyi son 10 il ərzində dünya miqyasında kənd təsərrüfatı sahəsi üzrə artım 31,8 faiz, Azərbaycanda isə 48,9 faiz, yəni dünya üzrə orta göstəricidən 17,1 faiz artıq olub. Bu dövr ərzində ərzaq məhsullarının artımı dünya miqyasında 18 faiz olduğu halda, ölkəmizdə bu göstərici 39 faiz təşkil edib. Bu illərdə ölkəmizdə milli ərzaq təhlükəsizliyinin təminatı möhkəmlənib. Daxili istehsal hesabına əhalinin əsas ərzaq məhsulları ilə təminatı səviyyəsi iki dəfəyə qədər yüksəlib. Meyvə-tərəvəz və bir sıra digər məhsulların tələbatdan artıq istehsal edilməsi bu məhsullar üzrə ixrac potensialını artırıb.

Hər bir ölkə üçün ərzaq təhlükəsizliyinin ən vacib məsələlərdən biri olduğunu vurğulayan cənab İlham Əliyev bildirib: "Çalışırıq ki, Azərbaycan öz ərzaq tələbatını 100 faiz səviyyəsində özü təmin etsin. Buna nail olmaq üçün bütün imkanlar var - torpaqlar, texnika, ondan sonra dövlət tərəfindən ayrılan vəsait. Subsidiyalar, gübrələr, yanacaq verilir. Eyni zamanda, "Aqrolizinq" xətti ilə texnika təmin edilir. Yəni dövlət öz üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirir. Fermerlər də bu imkanlardan səmərəli şəkildə istifadə etsinlər ki, kənd təsərrüfatı daha da sürətlə inkişaf etsin. Mən tam əminəm ki, biz öz ərzaq təhlükəsizliyimizi yüz faiz səviyyəsində təmin edə bilərik. Hesab edirəm ki, bu məqsədə çatmaq üçün bizə bir neçə il lazımdır. Çünki bizim düşündüyümüz siyasət, regionlara qoyulan investisiyalar, eyni zamanda, son vaxtlar aparılan islahatlar ərzaq təhlükəsizliyini tam şəkildə təmin edəcəkdir".

Son illərdə infrastruktur layihələrinin icrası, biznes və investisiya mühitinin yaxşılaşdırılması, həyata keçirilən dövlət dəstəyi, tədbirləri regionların iqtisadi potensialını gücləndirməklə cənab İlham Əliyevin iqtisadi siyasətinin prioritet istiqamətlərindən biri kimi bu sahədə sahibkarlığın inkişafında önəmli rol oynayıb.

Belə ki, son illərdə 29 rayonda 40 quşçuluq təsərrüfatına, 13 rayonda 20 heyvandarlıq və 8 rayonda südçülük komplekslərinə, 6 rayonda 7 ət kəsimi və emalı müəssisəsinə 240 milyon manat güzəştli kreditin verilməsi istehsalın artmasına, 3 ildə ət və ət məhsullarının idxalının əhəmiyyətli dərəcədə azalmasına səbəb olub. Bundan əlavə, 20 rayonda 33 intensiv bağçılıq və üzümçülük təsərrüfatlarına, 9 rayonda 37 istixana kompleksinə və 11 rayonda 26 meyvə-tərəvəz emalı müəssisələrinə 171 milyon manat güzəştli kreditlərin verilməsi bu məhsullara daxili tələbatın ödənilməsi və ixrac imkanını yaratmışdır.

Ərzaq tələbatının yerli istehsal hesabına ödənilməsi məqsədilə 12 rayonda 30 min hektardan çox sahədə ümumi dəyəri 123,7 milyon manat olan 19 iri fermer təsərrüfatının yaradılmasına 54,8 milyon manat güzəştli kreditlər verilib. O cümlədən Şəmkirdə təməli qoyulmuş və məhsulların istehsalından satışınadək bütün mərhələləri əhatə edəcək özəl pilot aqroparkında işlər artıq praktik müstəviyə keçmişdir. Hazırda Xızı rayonunda aqroparkların yaradılması məqsədilə baş plan hazırlanır, Bərdə və Xaçmazda da aqrar-sənaye kompleksləri yaradılır. Digər tərəfdən, ötən illər ərzində məhsulların tədarükü, saxlanması və satışı, infrastrukturun yaradılması, o cümlədən 26 rayonda tutumu 290 min ton olan 48 logistik mərkəzin və 14 rayonda 340 min ton olan 22 taxıl anbarı kompleksinin yaradılması əhalinin ilboyu keyfiyyətli yerli məhsullarla təminatında mühüm rol oynayır.

Cəlilabad rayonunda iri fermer təsərrüfatının açılışının önəmini vurğulayan cənab İlham Əliyev bildirib: "Bu il bizim iqtisadiyyatımız hələ birinci yarımildə təxminən 6 faiz artıb. Dünya miqyasında bu, bəlkə də indiki dövrdə ən yüksək göstəricidir. Qeyri-neft sektorumuz 9 faizdən çox artıb. Bu da ən yüksək göstəricidir. Baxmayaraq ki, bizim iqtisadiyyatımızın bir hissəsi neftlə, qazla bağlıdır və qiymətlər kəskin şəkildə aşağı düşüb və hələ düşməyə davam edir, biz də heç bir sosial layihəni ixtisar etməmişik, əksinə, sosial-iqtisadi infrastruktur layihələri icra edilir. Bax bugünkü layihə bunun bariz nümunəsidir".

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**